


# İran şahının edam etdirdiyi azərbaycanlı millət vəkili

## Mirzə Nurullah Xan

**Məhəmməd Rəhmanifər**

*Bundan əvvəlki yazıda Güney Azərbaycanın çağdaş tarixində baş verən üç böyük qiyamı, yəni Məşrutə hərəkatı (1905-1911), Şeyx Məhəmməd Xiyabani qiyamı (1920) və Azərbaycan Milli Hökumətini (1945-1946) "tarixi davamlılıq" ideyası prizmasından araşdırdıq və bildirdik ki, bu qiyamların üç böyük liderindən birini tərifləyən, digər ikisini isə pisləyən bəzilərinin fikrinin əksinə olaraq biz ard-arda yaşanan bu üç qiyamı eyn müstəvidə görməsək də, bir-birinin davamı kimi görürük. Beləcə, əvvəlki qiyamlar tarixi təcrübə olaraq sonrakı qiyama təsir buraxıb onun tamamlanmasına və təkamülünə səbəb olub.*



Bu yazıda əvvəlki məqalənin məzmununu təkrarlamamağa çalışmaqla yanaşı, həyat və fəaliyyəti Güney Azərbaycanın çağdaş tarixində "tarixi davamlılıq" ideyasının büllurlaşması, təcəssümü və həqiqətə çevrilməsində rolu olan mühüm tarixi şəxsiyyətdən bəhs edəcəyik. Əvvəlki yazıda qeyd etdiyimiz kimi, vaxtilə Səttar Xanın yanında olub, sonralar Azərbaycan Milli Hökumətinə (1945-1946) qatılanların sayı az deyildi. Bunlardan biri və bəlkə də ən məşhuru Mirzə Nurullah Xan olub.

Mirzə Nurullah Xanın tərcümeyi-halı öz sözləri ilə Azərbaycan Milli Hökuməti dövründə (1945-1946) nəşr olunan "Azad Millət" qəzetinin 46-cı sayında yayımlanıb. Kiçik dəyişikliklərlə yazı belədir:

"Adım Nurullah, atamın adı Əli, 1877-ci ildə Yekən kəndində anadan olub, orada qədim məktəbdə dərs oxuyub sonra xaricə getdim. O zaman İran istibdadı əleyhinə təşkil olunan İctimaiyun-Amiyun firqəsinin qurulmasında payım oldu. Məşrutə hərəkatında Firqə çox təsirli oldu. Çar Rusiyasının dəstəyi ilə istibdadın geri dönməsi nəticəsində neçə nəfərlə bərabər həbsə salındım. Neçə vaxtdan sonra həbsdən xilas olub Xoy şəhərindəki azadlıq peşində olanlara yardım etməyə getdim. Azadlıq yolunda çox mübarizələr apardım. Sonra Çar Rusiyasının və İran istibdadçılarının basqısı nəticəsində İstanbula köçmək zorunda qaldım. Orada təhsilimi tamamlayıb vətənə xidmət üçün Polis məktəbinə girdim və oranı bitirdikdən sonra Birinci Dünya müharibəsinə qatıldım. Müharibədən sonra İrana qayıtdım və Tehran hökuməti tərəfindən Təbriz nəzmiyyəsinə (polis təşkilatına) məmur oldum. Məmur olduğum halda doğulduğum yer Yekən mahalının xalqının savadlanması üçün öz xərcimlə orada neçə məktəb açdım. Bir müddət sonra Lahuti qiyamı zamanında "dinsizlik" ittihamı ilə tutuldum və açdığım məktəbləri bağladılar. Rza şahın diktatorluğunda dəfələrlə libertar olma ittihamı ilə tutulub həbs edildim. 1941-ci ilin sentyabr ayında İran işğal olunduqdan sonra Rza şah İranı tərk etmək zorunda qaldı və mən bir daha azadlıq uğrunda mübarizə aparmaq üçün Azərbaycan Demokrat Firqəsinə üzv oldum.



***1945-ci ildə Azərbaycan Milli Məclisi təşkil olunan zaman Xoy əhalisi tərəfindən vəkil seçildim və indi isə Azərbaycan Milli Hökumətinin daxili işlər nazirinin müavini olaraq öz vətənimə xidmət etməklə məşğulam".***

Təbii ki, Nurullah Xan kimi böyük bir insan özü barədə yazıda təvazökarlıqla danışıb, fəaliyyətinin əhəmiyyətini və rollarını xatırlatmaqdan çəkinib. Biz yaxşı bilirik ki, Məşrutə qiyamı dönəmində Nurullah Xana Xoy şəhərinin azad edilməsi tapşırığı verilir. O bu vəzifəni uğurla yerinə yetirir. Bu məsələ o qədər əhəmiyyətli idi ki, bəzi tanınmış tarixçilər Nurullah Xana "Xoy Fatehi" adını veriblər. Məşrutədən sonra isə, istər Şeyx Məhəmməd Xiyabani qiyamında (1920), istərsə Azərbaycan Milli Hökuməti ərəfəsində və ya mərkəzi rejimə qarşı başqa qiyamlarda çox təsirli rol oynayıb. Bu səbəbdən dolayı onu tanımaq üçün yazdığı qısa yazıyla kifayətlənməyi doğru hesab etmirik. O səbəbdən tarixi qaynaqlardan faydalanaraq bu böyük insan haqqında təfsilatı ilə məlumat verməyə çalışacağıq.

Azərbaycanın çağdaş tarixində Nurullah Xan:

Yuxarıda qeyd edildiyi kimi, Nurullah Xan Məşrutə Hərəkatında vacib rol oynayıb. Məşrutə dövründə ruslar məşrutəçiləri sıxışdırmaq niyyəti ilə Təbrizə getmək üçün Culfa körpüsünü keçmək istədiklərində Nurullah Xan əmrində olan azsaylı əsgərlərlə onlara qarşı qəhrəmancasına dayanıb və Təbrizdən teleqraf gəlməyənə qədər rus ordusunun körpüdən keçməsinə imkan verməyib.




Ruslar Təbrizə daxil olduqdan sonra əvvəlki vəd və razılaşmalarının əksinə olaraq şəhəri ələ keçirir və məşrutə mücahidlərini sıxışdırırlar. Təbriz Gizli Cəmiyyətinin qərarı ilə Səttar Xan Təbrizi tərk etmək məcburiyyətində qalır.

***Təbrizdən Tehrana olan bu ağır və kədərli yolçuluqda Nurullah Xan da Səttar xanın yanında olur. O, hətta Səttar Xanın yaralanması və bəzi məşrutə mücahidlərinin öldürülməsi ilə nəticələnən Tehrandakı Atabək parkı vuruşmasında da iştirak edirdi və əslində bu, onun Səttar Xanın tərəfində vuruşduğu son savaş idi. Çünki bildiyimiz kimi, həmin müharibədə Səttar Xana dəyən güllə sonunda bu Azərbaycan qəhrəmanının ölümünə səbəb oldu...***

**(ardı gələn sayımızda)**

*Ruslar Təbrizə daxil olduqdan sonra əvvəlki vəd və razılaşmalarının əksinə olaraq şəhəri ələ keçirir və məşrutə mücahidlərini sıxışdırırlar. Təbriz Gizli Cəmiyyətinin qərarı ilə Səttar Xan Təbrizi tərk etmək məcburiyyətində qalır. Təbrizdən Tehrana olan bu ağır və kədərli yolçuluqda Nurullah Xan da Səttar xanın yanında olur. O, hətta Səttar Xanın yaralanması və bəzi məşrutə mücahidlərinin öldürülməsi ilə nəticələnən Tehrandakı Atabək parkı vuruşmasında da iştirak edirdi və əslində bu, onun Səttar Xanın tərəfində vuruşduğu son savaş idi. Çünki bildiyimiz kimi, həmin müharibədə Səttar Xana dəyən güllə sonunda bu Azərbaycan qəhrəmanının ölümünə səbəb oldu...*